# Fədakarlıq və şəfqət nümunəsi— Azərbaycan qadını

Qadın günü hələ qədim Roma imperiyasında mövcud olmuşdur. Həmin gün matronlar adlanan azad Roma qadınları üçün bayram hesab olunurdu. Belə ki, bu gündə matronlar nikah əlaqəsinə girir, öz ərlərindən hədiyyələr alır, yaxınlarının diqqət və qayğısı ilə əhatə olunurdular. Hətta qul qadınlara da həmin gün istirahət verilirdi. Özlərinin ən yaxşı və bahalı paltarlarını geymiş, başlarına çələnglər qoymuş romalı qadınlar ailə ocağının hamisi hesab edilən Vesta allahının məbədində ibadət edirdilər.

Türk xalqlarında ta qədimdən qadın, ana müqəddəs sayılmış, ona böyük ehtiram göstərilmişdir. Ana haqqı Tanrı haqqına bərabər tutulmuşdu. Uzaq səfərlərdən gələn oğul birinci olaraq anasını ziyarət etmiş, onun qarşısında baş əymiş, sonra atası ilə görüşmüşdür.

Türk-Azərbaycan qadını yaxşı ana, sədaqətli həyat yoldaşı olmaqla bərabər lazım gəldikdə kişilərlə birlikdə vətənin yadellilərdən qorunmasında iştirak etmiş, böyük mərdlik və igidlik nümunəsi göstərmişdir. Qədim Azərbaycan hökmdarı və sərkərdəsi Tomris vətənimizə işğalçı kimi gəlmiş əhəməni hökmdarı II Kiri məğlub etmişdir.

Ağqoyunlu hökmdarı uzun Həsənin anası Sara Xatun Azərbaycanın digər dövlətlərlə bərabər səviyyəli diplomatik əlaqələrinin qurulmasında böyük rol oynamışdır. Quba xanı Fətəli xanın xanımı Tuti Bikə əri olmadığı zamanda qoşuna başçılıq etmiş, Dərbəndi düşmən işğalından qorumuşdur.

Bir sözlə Azərbaycan qadını öz zəkası, müdrikliyi, sədaqəti, qəhrəmanlığı, vəfası yüksək analıq keyfiyyəti ilə hər zaman xalqımızın adını uca tutub.

XX əsr dünyada qadınların rolunun cəmiyyətdə artması ilə yadda qalıb. Azərbaycan qadını XX əsrdə cəmiyyət həyatının bütün sahələrində fəal iştirak edib.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra bu fəallıq daha da artmışdır. Müstəqil Azərbaycanımızın 1995-ci ildə qəbul edilmiş Konstitusiyasında qadınların kişilərlə bərabər demokratik dövlət quruculuğu prosesində fəal iştirakının hüquqi bazası yaradılıb. Ulu öndər Heydər Əliyevin 1998-ci il 14 yanvar tarixli fərmanı ilə gender (cinslərin bərabərliyi) siyasətinin həyata keçirilməsi məqsədi ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaradılmış, 2006-cı ildə Prezident İlham Əliyevin sərəncamı ilə bu komitənin hüquqları daha da genişləndirilərək Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinə çevrilmişdir.

Ölkə Prezidenti cənab İlham Əliyev başda olmaqla Azərbaycan hökuməti qadınların təkcə sənədlərdə yox, real həyatda da kişilərlə bərabər tutulması, xoşbəxt olması üçün bütün tədbirləri həyata keçirir. Çünki cəmiyyətin xoşbəxtliyi, firavanlığı, gələcəyi qadın xoşbəxtliyinə bağlıdır.

2010-cu ildə Azərbaycan Respublikası Milli Məclisində "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanunun qəbulu qadın məsələlərinin hər zaman Azərbaycan hakimiyyətinin diqqət mərkəzində olduğunun təzahürüdür.

Azərbaycanda qadın fəallığının artmasında, onların hüquqlarının qorunmasında Heydər Əliyev Fondunun prezidenti, ölkəmizin birinci xanımı Mehriban xanım Əliyevanın xidmətləri xüsusi qeyd edilməlidir. Heydər Əliyev Fondu ölkəmizdə elmin, təhsilin, mədəniyyətin inkişafı, sosial problemlərin həlli naminə gördüyü fəal işlərlə yanaşı, gender problemlərinin, qadınlara qarşı bütün zorakılıqların, ənənəvi Azərbaycan ailəsinə zidd olan stereotiplərin aradan qaldırılmasına xüsusi diqqət yetirir. Fondun prezidenti Mehriban Əliyeva öz intellektual enerjisini cəmiyyətin inkişafına yönəltməklə Azərbaycan qadınının ictimai fəaliyyətinin yeni səhifəsini açmışdır.

Mehriban xanım Əliyeva bu gün bütün fəaliyyətini xalqına həsr etmiş əsl Azərbaycan qadını kimi nəinki ölkəmizdə, mübaliğəsiz demək olar ki, bütün dünyada tanınmışdır. Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti vətənimizin və dünyanın bir çox nüfuzlu beynəlxalq təşkilatlarının və dövlətlərinin fəxri adlarına, çox saylı mükafatlara layiq görülmüşdür. Mehriban xanım Əliyeva öz fədakarlığı ilə uşaqdan böyüyə hər bir azərbaycanlının qəlbində özünə sevgi və məhəbbət qazanmışdır.

**Qüdrət SƏMƏDOV.**

# Manatın məzənnəsinin dəyişdirilməsində ajiotaja ehtiyac yoxdur

***Çünki manat etibarlı valyuta kimi dəyərini qoruyacaq, ölkə iqtisadiyyatının rəqabət qabiliyyətini yüksəldəcək, investisiyaların stimullaşdırılmasına xidmət edəcəkdir.***

Tarix zaman-zaman sübut etmişdir ki, təbiətin və cəmiyyətin öz qanunları olduğu kimi iqtisadiyyatın da özünəməxsus qanunları var. Hər hansı bir cəmiyyətdə bu qanunları müvəqqəti olaraq müəyyən axara yönəltməyə cəhd göstərilsə də sonda buna nail olmaq mümkün olmamışdır. Xüsusilə dünya ölkələri qloballaşma prosesinə yaxınlaşdıqca bu, tamamilə mümkünsüz bir amilə çevrilməkdədir. Artıq Azərbaycanımızın da dünya iqtisadiyyatının bir parcası kimi bu prosesdə özünə məxsus yeri var. Çünki son illərdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dünya təcrübəsinə və cəmiyyətin ümumi inkişaf qanunlarına uyğun olaraq həyata keçirdiyi sosial-iqtisadi siyasət ölkə iqtisadiyyatını sürətli inkişafa gətirib çıxarmış və hazırda bu, ekspertlər tərəfindən təqdirəlayiq bir hal hesab edilir. Həm də bu amili indi nüfuzlu və mötəbər beynəlxalq maliyyə qurumları da yüksək qiymətləndirirlər. Lakin geci-tezi yuxarıda qeyd etdiyimiz kimi son illərdə regionda gedən proseslər Azərbaycan iqtisadiyyatına da öz təsirini göstərməyə bilməzdi.

Burada, xüsusilə, qeyd etmək lazımdır ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu yaxınlarda Mingəçevir şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşündə ölkədə davamlı iqtisadi uğurlardan söhbət açmaqla manatın məzənnəsinin dəyişdirilməsinə öz münasibətini bildirmişdir. Cənab Prezident qeyd etmişdir ki, əsas məsələ Azərbaycan xalqını mümkün risklərdən qorumaq və ölkədə davam etməkdə olan sabitliyi möhkəmləndirməkdən ibarətdir. İlham Əliyev demişdir: «Həm Yaxın Şərqdə, həm Avropada, həm MDB məkanında baş verən xoşagəlməz hadisələr Azərbaycanda gedən işlərə mənfi təsir etməyib, çünki biz artıq özümüzü, öz seçimimizi müdafiə etməyə qadirik». Əlbəttə, baş verməkdə olan hadisələrlə bağlı yeni mərhələdə yeni seçim, düzgün seçim vacib məsələdir. Yeni mərhələnin başlıca amili, başqa sözlə desək, onun hədəfi milli iqtisadiyyatımızın yüksəldilməsinə və dünya təsərrüfat sisteminə inteqrasiyaya nail olmaqla, uzunmüddətli perspektivdə ölkədə dinamik sosial-iqtisadi inkişafın davamlılığı təmin olunmalıdır. Cənab Prezident ötən illərdə imzaladığı fərmanlarda, təsdiq etdiyi bütün dövlət proqramlarında qarşıda duran hədəflərin reallaşdırılması üçün yerinə yetirilməsi zəruri olan vəzifələri bütün istiqamətlərdə dəqiqliklə müəyyənləşdirmişdir. Əgər bu qabaqlayıcı tədbirlər nəzərə alınmasaydı, vaxtında lazımi tədbirlər görülməsəydi ölkədə əldə edilən hazırki uğurlardan söhbət açmağa dəyməzdi.

Deməli, Azərbaycanda hazırda dünya iqtisadiyyatını ciddi sınağa çəkən böhranın yaratdığı çətinlikləri qabaqlayıcı tədbirlər həyata keçirməklə aradan qaldırmaq mümkündür. Məhz bu baxımdan Mərkəzi Bankın idarə heyətinin fevralın 16-dan etibarən məzənnə siyasətində ikitərəfli məzənnənin hədəflənməsində valyuta səbəti dəyərinin hədəflənməsinə keçid barədə qərarı mühüm addım oldu. Məzənnə siyasətin ABŞ dolları və avronun daxil olduğu iki valyutalı səbət mexanizmi əsasında həyata keçirmək qərara alındı. Fevralın 21-də Azərbaycan Mərkəzi Bankı İdarə heyətinin qərarı ilə 1 ABŞ dollarının rəsmi məzənnəsi 1.05 AZN səviyyəsində müəyyən olundu. Qərarın milli iqtisadiyyatın şaxələndirilməsinə əlavə stimullar yaratmaq, onun beynəlxalq rəqabət qabiliyyətini və ixrac potensialını daha da gücləndirmək, bu əsasda tədiyyə balansının və ölkənin beynəlxalq ödəmə qabiliyyətinin strateji dayanıqlığını təmin etmək məqsədilə qəbul olunduğunu bildirən Mərkəzi Bank bəyan etdi ki, manatın məzənnəsinin korreksiyası həmçinin xarici ticarət tərəfdaşımız olan əksər ölkələrin milli valyutalarının son dövrlərdə əhəmiyyətli ucuzlaşmasının milli iqtisadiyyatın rəqabət üstünlüklərinə mənfi təsirini neytrallaşdırmağa yönəlib.

**(Ardı 5-ci səhifədə).**

# Tədbir keçirilmişdir



Rayonumuzda qadınların ən çox çalışdıqları təşkilatlardan biri mərkəzi xəstəxanadır. Burada işləyən tibb bacıları və həkimlər daim əhalinin sağlamlığının keşiyində dururlar. Müraciət edən xəstələri gülərüzlə müayinə edir lazımi köməklik göstərirlər.

8 Mart—Beynəlxalq Qadınlar Günü münasibətilə mərkəzi rayon xəstəxanasında tədbir keçirilmişdir.

Tədbirdə mərkəzi rayon xəstəxanasının baş həkimi Sabir Bayramov çıxış edərək qadınları təbrik etmiş, onlara çətin və şərəfli işlərində uğurlar arzulamışdır.

Sonda xəstəxana rəhbərliyi tərəfindən fəal qadınlardan bu qrupu fəxri fərmanla təltif olundu.

**Foto S. Umuyevindir.**